# Qan töküb torpağı Vətən edənlər...



***İkinci Qarabağ müharibəsində xalqın 30 illik torpaq həsrətinə öz qanı, canı ilə son qoyan Vətənin qəhrəman övladlardan biri də Azərbaycan Silahlı Qüvvələrinin mayoru şəhid Aqşin Nazim oğlu İbadovdur. Doğulub boya-başa çatdığı Lənkəran rayonunun Boladı kəndində bu, Vətən sevdalısının adı çəkiləndə belə kiçik də, böyükdə qürur hissi keçirir, qəlblərdə doğma Azərbaycana olan ilahi bir məhəbbət hissi baş qaldırır. Bəli, ömrü günəşləşən Aqşın indi artıq boladililər üçün şandır, şöhrətdir.***

Vətən torpaqların işğalına qarşı barışmaz mövqe tutan Aqşin özünə hərbiçi peşəsini seçib. O, 2001-2005-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində kəşfiyyatçı ixtisası üzrə təhsil alıb. Leytenant rütbəsi alaraq, hərbi vəzifəyə başlayıb. Ağstafa rayonunda, Mingəçevir şəhərində, Murovdağda, Gədəbəy rayonunda yerləşən "N" saylı hərbi hissələrdə canından artıq sevdiyi Vətəninə vicdanla xidmət edib. Vətənpərvərliyi, peşəkarlığı həmişə ona hörmət qazandırıb, mayor rütbəsinə qədər ucalıb.

Azərbaycan Ordusunun kəşfiyyatçı mayoru olan Aqşin İbadov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Murovdağın, Füzulinin, Cəbrayılın, Xocavəndin və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Oktyabrın 19-da Zəngilan döyüşləri zamanı ömrünün 36-cı ilində şəhidlik zirvəsinə ucalıb və Lənkəran rayonunda dəfn olunub.

Qalib şəhid Aqşin İbadovun adına can dediyi, müqəddəsliyinə tapındığı Azərbaycanın qarşısında xidmətləri böyükdür. Dövlət tərəfindən layiq görüldüyü təltiflər də bunu göstərir. III dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə", "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", III dərəcəli "Qüsursuz xidmətə görə", "Azərbaycan Ordusunun 100 illiyi", II dərəcəli "Qüsursuz xidmətə görə", ölümündən sonra isə "Vətən uğrunda", Cəbrayılın, Kəlbəcərin, Xocavəndin, Füzulinin azadlığına görə medalları ilə təltif edilib.

Yeri milyonların ürəyi olan şəhid Aqşin İbadovun 39 yaşı da lənkəranlılar tərəfində böyük ehtiramla qeyd olunub. Doğum günündə Lənkəran Şəhər İcra Hakimiyyətinin əməkdaşları, yerli ictimaiyyətin nümayəndələri şəhidin ailəsinə baş çəkib, qəhrəman övladımızın məzarını ziyarət edib, önünə gül dəstələri düzüblər.

Mərasimdə çıxış edənlər bildiriblər ki, Aqşin kimi Vətənin qeyrətli oğlanlar hesabına 44 günlük haqq savaşımız möhtəşəm zəfərlə başa çatdı. Bu da Azərbaycan və dünya hərb tarixinə qızıl hərflərlə yazıldı. Vətəninə, torpağına bağlı qəhrəman Aqşın İbadovun adı hər gələn nəsillərə örnək olsun deyə daimi böyük ehtiramla çəkilər.

***Zəfər Orucoğlu, AJB üzvü***

Unikal.- 2023- cü il.- 15 sentyabr.- S. 13.